Seysmozavr

Vikipediya, azad ensiklopediya

Seysmozavr (lat. *Seismosaurus*) — Nəhəng ot yeyən dinozavr olaraq Saurischia dəstəsinə aid edilən cins. Seismosaurus hallorum növünün ancaq qabırğaları, ombası və onurğa sütununun bir neçə sümüyü aşkarlanmışdır. Ola bilsin ki, ən böyük dinozavrdır (Bəziləri isə Amphicoelias ən iri dinozavr olmasını bildirirlər. Bu da mübahisə predmetidir).

† **Seysmozavr**

Elmi təsnifat

Aləmi:	Heyvanlar
Tip:	Xordalılar
Sinif:	Sauropsida
Dəstəüstü:	Dinozavrlar
Dəstə:	Saurischia
Yarımdəstə :	Sauropodomorpha
İnfradəstə:	Sauropoda
Fəsilə:	Diplodocidae
Cins:	**Seysmozavr**
Növ:	***Seismosaurus hallorum***

Elmi adı

Seismosaurus hallorum DAVID GILLETTE, 1991

Mündəricat

Görünüşü
Həyat tərzi
Klassifikasiya
İstinadlar
Mənbə

Görünüşü

İlk dəfə 1991-ci ildə D. Gillette tərəfindən bu növün skletlərini aşkarlanmışdır. Onlar Kimmer əsrində yayılmışlar. Onların qalıqları Hyu-Meksika ərazilərində aşkarlanmışdır. Əvvəllər onların uzunluğu 40-50 metr, çəkisi isə 140 ton hesab edilirmiş. Hazırda isə uzunluqları 36–40 m, çəkisi 30-50 ton kimi qiymətləndirilir. Seysmozavr dünyada yaşamış ən iri dinozavrlardan olmuşdur. Onların uzun quyruğu və boyunları olmuşdur.

Onların ön ayaqları arxa ayaqlarına nisbətən qısa olmuşdur. Qısa ayaqlar onların tarazlıqlarına xidmət etmişdir. Uzun quyruqları ola bilsin ki onların mühafizəsinə xidmət edirmiş.

Seysmozavrlar boyunlarını yerə paralel saxlaya bilirdilər. Bu ölçüləri onların meşələrin daxili hissələrinə girməyə imkan vermir. Onlar quru ərazidə durmaqla istər bataqlıqlardakı bitkilər istərsədə meşələrin kənarlarındakı bitkiləri asanlıqla əldə edə bilirdilər.

Həyat tərzi

Seysmozavr böyük ehtimal ki, çöl və ya bataqlıq ərazilərdə yaşamışdır. Cavan fərdlər sürü halında yaşayırdılar. Böyüklər isə ola bilsin ki, tək həyat sürə bilirmişlər. Bataqlıq bitkiləri və ya göl ətrafında yerləşən çöllərdəki otlarla qidalanırmış. Diplodocuslardan fərqli olaraq arxa ayaqları üstə dura bilmirlər. Bunla belə boynunu 20 metr hündürlüyə qaldıra bilirmiş.

Həyat tərzi mübadisə predmetidir.

Klassifikasiya

2004-ci ildə Amerika Qeoloqlar konfedreasiyası birliyi *Seismosaurus* cinsinin diplodokların kiçik sinonimidir[1]. 2006-ci ildə *Seismosaurus hallorum* adı *Diplodocus hallorum* dəyişilmişdir[2]. Belə fikir var ki, *Diplodocus hallorum* ekzempelyar olaraq *Diplodocus longus* daxil edilməlidir yəni *Supersaurus* cinsinə daxildir. Bəziləri *Seismosaurus* və *Supersaurus* kimi cinsə daxil olan canlıların eyni dinozavr olmaları qəbul edilmir[3].

İstinadlar

1. *Lucas S, Herne M, Heckert A, Hunt A, and Sullivan R*. Reappraisal of Seismosaurus, A Late Jurassic Sauropod Dinosaur from New Mexico. The Geological Society of America, 2004 Denver Annual Meeting (November 7-10, 2004). Retrieved on 2007-05-24.
2. Lucas, S.G., Spielman, J.A., Rinehart, L.A., Heckert, A.B., Herne, M.C., Hunt, A.P., Foster, J.R., and Sullivan, R.M. (2006). «Taxonomic status of Seismosaurus hallorum, a Late Jurassic sauropod dinosaur from New Mexico». in Foster, J.R., and Lucas, S.G.. Paleontology and Geology of the Upper Morrison Formation. New Mexico Museum of Natural History and Science (bulletin 36). pp. 149—161. ISSN 1524-4156.
3. Lovelace, David M.; Hartman, Scott A.; and Wahl, William R. (2007). «Morphology of a specimen of Supersaurus (Dinosauria, Sauropoda) from the Morrison Formation of Wyoming, and a re-evaluation of diplodocid phylogeny». Arquivos do Museu Nacional 65 (4): 527—544.

Mənbə

- Dino-Millennium (http://www.dinomillennium.com/2010/05/blog-post.html)

Mənbə — "https://az.wikipedia.org/w/index.php?title=Seysmozavr&oldid=3789821"

Bu səhifə sonuncu dəfə 11 yanvar 2017 tarixində, saat 15:49-də redaktə edilib.

Mətn Creative Commons Attribution-ShareAlike lisenziyası altındadır, bəzi hallarda əlavə şərtlər tətbiq oluna bilər. Ətraflı məlumat üçün istifadə şərtlərinə baxın.